**ADA UNİVERSİTETİ**
**TƏHSİL MƏKTƏBİ**
**TƏLİM VƏ TƏDRİSİN TƏŞKİLİ VƏ METODİKASININ HUMANİTAR ELMLƏR ÜZRƏ**
**MAGİSTR DƏRƏCƏSİ ÜÇÜN TƏLƏBƏLƏRİN QİSMƏN DƏRƏCƏLƏNDİRİLMƏSİ ÜÇÜN**
**LAYİHƏ ƏSASLI TƏDQİQAT TƏQDİM EDİLDİ**

# “BİOLOGİYA MÜƏLLİMLƏRİNİN FORMATİV QİYMƏTLƏNDİRMƏ TƏCRÜBƏLƏRİ (BAKI NÜMUNƏSİNDƏ)”

Samirə Əfəndiyeva
safandiyeva18933@ada.edu.az

**Bakı, Azərbaycan**
**© 2025**

SCHOOL OF EDUCATION

**HƏQİQİLİK BƏYANATI**

Biz ADA-nın plagiat siyasəti ilə tanış olduq və təsdiq edirik ki, “Biologiya müəllimlərinin formativ qiymətləndirmə təcrübələri (Bakı nümunəsində)” adlı bu layihənin məzmunu bizim öz işimizdir və heç bir təsdiq olunmamış əsəri ehtiva etmir.

İmza:____________________________________________

İmza:____________________________________________

İmza:____________________________________________

**Tarix:________________________________**

**Təhsil Məktəbi**

**Layihə Əsaslı Tədqiqatın Təsdiq Forması**

Tələbə Adı/ Soyadı: Samirə Əfəndiyeva

Tələbənin ID nömrəsi: P000018933

Proqramın adı: MATL (Təlim və Tədrisin Təşkili və Metodikası üzrə Magistr)

Akademik istiqamətin seçilməsi:

Tədqiqat istiqaməti Peşəkar istiqamət

Şərhlər:

Kurs Müəllimi: Dr. Rza Məmmədov

Elmi Rəhbər: Dr. Qoşqar Məhərrəmov

Təhsil Məktəbinin dekanı: Dr. Ülviyyə Mikayılova

**Xülasə**

Müəllimlərin formativ qiymətləndirmə fəaliyyətləri onların və şagirdlərinin uğurlarına güclü təsir etsə də, formativ qiymətləndirməni həyata keçirmək kifayət qədər mürəkkəb iş olub, hərtərəfli peşəkar inkişaf tələb edir (Black və Wiliam, 1998). Bunun üçün müəllimlərə müxtəlif istiqamətli fəaliyyətlər (təlimlər, seminarlar, resurslar və s.) şəklində peşəkar inkişaf proqramları təklif oluna bilər. Cari tədqiqatın məqsədi Azərbaycanda ümumtəhsil məktəblərində dərs deyən Biologiya müəllimlərinin formativ qiymətləndirmə ilə bağlı bilik və bacarıqlarının təkmilləşdirilməsidir. Bunun üçün ilk olaraq, ümumtəhsil məktəblərində formativ qiymətləndirmənin cari vəziyyətini müəyyənləşdirmək üçün müəllimlərlə müsahibələr təşkil olunmuşdur. Tədqiqat aşağıdakı tədqiqat suallarını cavablandırmağa çalışmışdır:

Müəllimlərinin formativ qiymətləndirilmə ilə bağlı təcrübələri, bilik və bacarıqları nələrdir?

Onların formativ qiymətləndirmənin tətbiqi zamanı rastlaşdıqları problemlər və bu problemlərin mümkün həlli yolları nələrdir?

Bu tədqiqatda keyfiyyət tədqiqat metodundan biri olan fəaliyyət tədqiqatı yanaşması istifadə edilmişdir. Məlumatlar Bakı məktəblərində 2024-2025-ci tədris ilində dərs deyən 8 müəllimlə aparılmış yarıstrukturlaşdırılmış müsahibələr nəticəsində əldə olunmuşdur. Tədqiqat iştirakçılarının seçimində ehtimala əsaslanmayan rahat seçmə üsulu tətbiq edilmişdir.

Müsahibə sualları ədəbiyyat araşdırmasına əsasən tədqiqatçı tərəfindən hazırlanmış və 3 mütəxəssisə göndərilərək alınmış rəylər əsasında təkmilləşdirilmişdir. Məlumatların toplanması tədqiqatçının özü tərəfindən onlayn şəkildə həyata keçirilmiş və iştirakçıların icazəsi ilə səs yazısına alınmışdır. Müsahibələr 40-60 dəq, ümumilikdə 8 gün ərzində həyata keçirilmişdir.

Tapıntılar 2 mövzu üzrə xülasə edilmişdir: Formativ qiymətləndirmə təcrübələri (1) və Formativ qiymətləndirmə ilə bağlı problemlər və həll yolları (2). Birinci mövzu üzrə 9, 2-ci mövzu üzrə isə 3 kateqoriya müəyyən olunmuşdur. Tədqiqatın təhlili nəticəsində müəllimlərin formativ qiymətləndirmə ilə bağlı rastlaşdıqları problemlər 2 qrupda təsnif olunmuşdur: müəllimlərlə bağlı problemlər və müəllimlərdən asılı olmayan problemlər. Birinci qrupa daxil olan problemləri müəllimlər üçün təşkil olunmuş müxtəlif peşəkar inkişaf proqramları tətbiq etməklə aradan götürmək mümkündür. Bunu nəzərə alaraq, layihə çərçivəsində müəllimlərə1 günlük təlim təşkil olundu və özünü qiymətləndirmə üsulları ilə bağlı broşür hazırlandı.

*Açar sözlər:* formativ qiymətləndirmə, problemlər, həll yolları.

## Təşəkkürlər

Elmi rəhbərim Dr. Qoşqar Məhərrəmova layihə əsaslı tədqiqat işimə rəhbərlik etmək üçün sərf etdiyi vaxtla yanaşı, hərtərəfli dəstəyə görə təşəkkür edirəm. Mən tədqiqatımı onun faydalı və öyrədici rəyi ilə inkişaf etdirdim və onun elmi rəhbərliyi ilə tədqiqat zamanı qarşılaşdığım problemlərimi həll etdim. Dr. Rza Məmmədov müəllimin tədqiqat işi zamanı olan əməyi də danılmazdır. Layihə əsaslı tədqiqatı mənə öyrətdiyi və suallarıma hər zaman aydın, dolğun, izahlı şəkildə cavab verdiyi üçün ona təşəkkür edirəm.

Tədqiqatda iştirak edən Bakıdakı müxtəlif ümumtəhsil məktəblərindən olan iştirakçılara minnətdarlığımı bildirirəm. Onların cavabları tədqiqat işini araşdırmaqda və təhlil aparmaqda çox faydalı oldu. Tədqiqat zamanı müəllimlərin səmimiyyəti çox yüksək qiymətləndirildi.

Nəhayət, ailəmin dəstəyini qeyd etməsəm onlara qarşı haqsızlıq etmiş olaram. Onların mənə olan dəstəyi və inamı bütün proses boyu mənim üçün həm yaxşı motivasiya, həm də müsbət əhval-ruhiyyə yaratmağa kömək etdi.

MÜNDƏRİCAT

I FƏSİL ........................................................................................................ 7

GİRİŞ ........ 7
Problemin ifadəsi ........ 9
Layihənin məqsədi və tədqiqat sualı ........ 11
Layihənin aktuallığı ........ 11
Layihənin məhdudiyyətləri ........ 12
II FƏSİL ........ 13
Ədəbiyyat icmalı ........ 13
1. Formativ qiymətləndirmə nədir? ........ 13
2. Formativ qiymətləndirməyə təsir edən amillər ........ 16
3. Təbiət fənnlərində formativ qiymətləndirmənin tətbiqi ........ 17
III FƏSİL ........ 20
Metodologiya ........ 20
İştirakçıların seçimi ........ 21
Məlumatların toplanması ........ 21
Məlumatların təhlili ........ 21
Validlik və Etibarlılıq ........ 23
Layihənin etik mülahizələri ........ 24
IV FƏSİL ........ 25
TAPINTILAR ........ 25
Mövzu 1. Formativ qiymətləndirmə təcrübəsi ........ 26
Mövzu 2. Formativ qiymətləndirmə ilə bağlı problemlər və həll yolları ........ 35
V FƏSİL ........ 43
NƏTİCƏ VƏ TƏKLİFLƏR ........ 43
VI FƏSİL ........ 47
SON MƏHSUL ........ 47
Təlimin məqsədi ........ 48
Təlimin nəticəsi ........ 49
Ədəbiyyat siyahısı ........ 52

Əlavə A: Müsahibə sualları ........................................................................................... 61

Əlavə B: Rəy ........................................................................................................................ 63

Əlavə C: Etik sözləşmə formu ........................................................................................... 64

# I FƏSİL

## GİRİŞ

Öyrənmə prosesinə yanaşmanın dəyişməsi qiymətləndirməyə münasibətdə də özünü göstərdi. Nəticədə qiymətləndirməyə 2 cür yanaşma yarandı: öyrənmənin qiymətləndirilməsi

və öyrənmə prosesi üçün qiymətləndirmə (Green, 2018). Qiymətləndirməyə bu cür yeni yanaşma bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da bu sahədə islahatların aparılmasına təkan oldu. 2009-cu ildə təsdiq olunmuş "Azərbaycan Respublikasında ümumi təhsil sistemində qiymətləndirmə Konsepsiyası" adlı sənəd Azərbaycan Respublikasının Təhsil Qanununun, Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramının tələblərinə və dövlətin təhsil siyasətinə, qiymətləndirmənin müasir dünya standartlarına uyğun hazırlanmış və yeni qiymətləndirmə sisteminin prinsipləri üçün baza rolunu oynayan çərçivə sənədi oldu (Azərbaycan Respublikasının Təhsil Nazirliyi, 2009). 2018-ci ildə "Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (məktəbdaxili qiymətləndirmənin) aparılması Qaydası" təsdiq edildi (Azərbaycan Respublikasının Təhsil Nazirliyi, 2018). Bu sənəddə şagird nailiyyətlərini qiymətləndirmək məqsədilə məktəbdaxili qiymətləndirmələrin aparılması, qiymətləndirmə vasitələrinin yaradılması və tətbiq olunması üzrə təlimatlar öz əksini tapıb. Ənənəvi qiymətləndirmədən fərqli olaraq, yeni qiymətləndirmə sistemində təhsilalanların bilik və bacarıqları ilə yanaşı, həm də bu prosesdə onların fəaliyyəti, yəni necə öyrəndiyi, düşündüyü, davrandığı da qiymətləndirilir (Qasımova, 2021). Bu cür qiymətləndirmə növü formativ qiymətləndirmə adlanır. Effektiv şəkildə həyata keçirilən formativ qiymətləndirmə şagirdlərin akademik nailiyyətlərinə birbaşa təsir edir (McCallum və Milner, 2021; Volante və Beckett, 2011; Miller və Lavin, 2007). Belə ki, formativ qiymətləndirmə öyrənənlərin aktiv idrak fəaliyyətini gücləndirə və təlimin məzmununu başa düşməyə kömək edərək onların işini asanlaşdıra bilər (Gikandi və b., 2011). Bundan əlavə, formativ qiymətləndirmə şagirdlər arasında nailiyyət fərqlərini azaltmağa kömək edir. Black və Wiliamın (1998) qeyd etdiyi kimi, təkmilləşdirilmiş formativ qiymətləndirmə digər şagirdlərlə müqayisədə zəif nəticə göstərənlərə daha çox kömək edir və bütövlükdə nailiyyəti yüksəltməklə yanaşı, nailiyyətlərin diapazonunu azaldır. Li (2016) hətta formativ qiymətləndirmə ilə şagirdlərin PISA oxu nailiyyətləri arasında müsbət əlaqə aşkar etmişdir.

Biologiya dərslərində də şagirdlərin inkişafını izləmək üçün formativ qiymətləndirmə yanaşması geniş istifadə olunur. Tədrisdə formativ qiymətləndirməyə nə qədər çox diqqət yetirilirsə, şagirdlərin öyrənmə motivasiyası bir o qədər çox inkişaf edir və beləliklə onların nailiyyətləri artır (Black və Wiliam, 1998). Formativ qiymətləndirmə nəticəsində əldə olunan məlumat müəllimə müxtəlif tədris strategiyaları seçməyə, şagirdlərə fərdi yanaşmağa və səmərəli öyrənmə mühiti yaratmağa imkan verir. Formativ qiymətləndirmə strategiyalarına şagirdlərin cavablarının müzakirəsi, şagirdlərlə aparılan qısa yazılı sorğular, şagirdlərin özünüqiymətləndirməsinin təşkili, layihələr və təqdimatlar daxildir (Heritage, 2007).

**Problemin ifadəsi**

Black və Wiliam-ın (1998) qeyd etdiyi kimi formativ qiymətləndirmənin tədris və öyrənmə prosesi üçün faydaları artıq geniş öyrənilsə də, siniflərdə formativ qiymətləndirmənin faktiki tətbiqi qənaətbəxş deyil (Yan və Brown, 2021; Berry, 2010). Müəllimlər bir çox hallarda formativ qiymətləndirmə təcrübələrindən səmərəli istifadə edə bilmirlər (Buck, Traut-Nare və Kaftan, 2010; Heritage və b., 2009; Otero və Nathan, 2008).

Formativ qiymətləndirmənin tətbiqi ilə bağlı problemlərin səbəbləri bir çox tədqiqatçılar tərəfindən araşdırılmışdır. Sheparda görə (2000) buna səbəb müəllimlərin müasir qiymətləndirməni qəbul etməməsidir. O göstərir ki, müəllimlər siniflərdə müasir tədris metodlarını tətbiq etsə də, hələ də ənənəvi qiymətləndirməni saxlayırlar. Bennett və Cunningham da (2009) eyni fikri təsdiqləyərək qeyd edirlər ki, müəllimlər formativ qiymətləndirməni ya nəzərə almır ya da həyata keçirilməsi üçün kifayət qədər vaxt ayırmır. Əksər müəllimlər formativ qiymətləndirməni həyata keçirmək üçün öz konsepsiyalarını və təcrübələrini dəyişmək istəmirlər (Brookhart, 2011; Boardman və Woodruff, 2004), və ya bunu asanlıqla həyata keçirə bilmirlər (Cowie və Harrison, 2016;  Əli və İqbal, 2013). Karaman və Karaman (2017) göstərirlər ki, müəllim namizədlərinin, yəni pedaqoji fakültələrin tələbələrinin və yeni məzunların bu qiymətləndirməni effektiv həyata keçirə bilməmələrinin səbəbi məktəbəqədər şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınmaması və vaxt məhdudiyyətidir. Selvaraj, Azman və Wahi (2021) Malaziyada müəllimlərin formativ qiymətləndirmə ilə bağlı narahatlıqlarının səbəblərini sinifdə qiymətləndirmə təcrübələrində səthi və əzbər öyrənmənin üstünlük təşkil etməsi, qiymətləndirmə materiallarının tənqidi şəkildə nəzərdən keçirilməməsi və həmkarlar ilə müzakirə edilməməsi, öyrənmək əvəzinə qiymətləndirməyə daha çox önəmin verilməsini və qiymətləndirmələrin arzuolunan effektə malik olmaması ilə əlaqələndirmişlər. Güvendir və Özkan (2023) tərəfindən aparılmış tədqiqatda problemin səbəbi müəllimlərin formativ qiymətləndirmə ilə bağlı bilik və bacarıqlarının kifayət qədər olmaması göstərilmişdir. Belə ki, formativ qiymətləndirmə ilə bağlı təlim almış və almamış müəllimlərlə aparılan sorğunun nəticələrinə görə təlim almış müəllimlərin bilik və tətbiq bacarıqları digər qrupdan daha yüksək olmuşdur. Hətta, Mbwana (2024) göstərmişdir ki, biologiya müəllimlərinin formativ qiymətləndirmənin tətbiqi zamanı o qədər də uğurlu olmamalarının səbəblərindən biri, onların müxtəlif formativ qiymətləndirmə strategiyalarından məlumatsız olmalarıdır. O qeyd edir ki, müəllimlər əsasən qiymətləndirmə üsulu kimi şifahi sual-cavabdan istifadə edirlər. Bunları nəzərə alaraq, cari layihə çərçivəsində Bakı məktəblərində dərs deyən biologiya müəllimlərinin formativ qiymətləndirmə ilə bağlı bacarıqlarının təkmilləşdirilməsi hədəflənmişdir.

Lakin tədqiqatların əksəriyyətində problemin əsas səbəbi müəllimlərlə əlaqələndirilsə də, bununla yanaşı, formativ qiymətləndirmənin tətbiqinin uğursuz olmasını digər amillərlə əlaqələndirən tədqiqatlar da var. Məsələn, Arrafi və Sumarni (2018) özəl və ya dövlət məktəblərinin əksəriyyətinin şagirdlərin akademik göstəricilərini yalnız yekun və ya illik imtahandan alınan qiymətlər üzrə sıralandığını qeyd edir. Məktəbin və müəllimin işinin qiymətləndirilməsi əsasən də yekun nəticələrə baxaraq aparıldığından, daha çox bu növ summativ qiymətləndirmələrə məktəblərdə diqqət göstərilir. Başqa tədqiqatlarda pedaqoqlar və təhsil işçiləri üçün sinifdaxili qiymətləndirmədə prosedurların həyata keçirilmə məhdudiyyətləri kimi yüklənmiş tədris proqramları və qısa iş günləri göstərilir ki (Black və Wiliam, 2018; Khattak, 2012), nəticədə, müəllimlər öyrənmənin qiymətləndirilməsi üçün fəaliyyətlərin inkişaf etdirilməsi əvəzinə əsas diqqəti proqramların tamamlanmasına sərf edir.

Azərbaycanda da formativ qiymətləndirmənin tətbiqi ilə bağlı bir sıra problemlər var. Formativ qiymətləndirmənin tətbiqi zamanı rastlanan problemlərdən biri kimi bu qiymətləndirmə formasının şagirdlərin yarımillik və illik qiymətlərinin hesablanması zamanı nəzərə alınmamasıdır ki, (Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2018) bu da, nəticədə, istər müəllimlər, istər şagirdlər, istərsə də valideynlər tərəfindən formativ qiymətləndirməyə səthi yanaşmağa, onu diqqətə almamağa səbəb ola bilər. Digər məsələ formativ qiymətləndirmə şagirdlərin öyrənmə prosesi zamanı qazandıqları bilik və bacarıqlarının ölçülməsinə xidmət edir ki, Azərbaycanda istər məktəbdaxili, istərsə də şagirdlərin yekun qiymətləndirmə və ali məktəblərə qəbul imtahanlarının formatı bu qiymətləndirmənin tələblərini demək olar ki, nəzərə almır. Bu imtahanlar əksərən bilikyönümlü sualları əhatə edir ki, bunlar da yaddaşa əsaslanan suallar olub sinif mühitində əldə olunan bacarıqları əksərən yoxlamır.

Digər tərəfdən, Elm və Təhsil Nazirliyi tərəfindən 2009-cu ildən tətbiq olunan müəllimlərin işə qəbulu (MİQ) və 2022-ci ildən təhsilverənlərin sertifikatlaşdırma imtahanlarında formativ qiymətləndirmə ilə bağlı sualların olması və müsahibə mərhələsində müəllimlərin bu qiymətləndirmə ilə bağlı bacarıqlarının yoxlanılması bu istiqamətdə irəliləyişlərin olacağına zəmin yaradır, eyni zamanda bu qiymətləndirmə haqqında müəllimlərin daha çox bilik və bacarıq qazanmalarını zəruri edir.

Formativ qiymətləndirmə müəllimlərin şagirdlərin irəliləyişlərini başa düşməyə və öz öyrətmə strategiyalarını planlamağa və tənzimləməyə kömək edən mühüm vasitədir. Formativ qiymətləndirmənin səmərəli tətbiq olunmaması şagirdin öyrənməsinə, həm də müəllimin effektivliyinə təsir göstərə bilər. Belə ki, formativ qiymətləndirmənin tətbiq olunmaması müəllimlərin şagirdlərin tədris prosesində rastlaşdıqları çətinlikləri vaxtında müəyyən etməməsi və bu problemlərə çevik və effektiv şəkildə müdaxilə etməməsinə səbəb ola bilər. Bu, şagirdlərin öyrənmə prosesindən geri qalmasına və yetişməkdə çətinlik çəkməsinə gətirib

çıxarar (Black və Wiliam, 1998). Müəllimlərin şagirdlərinin fərdi öyrənmələri ilə bağlı məlumatlı olmamaları onların şagirdlərin ehtiyaclarına uyğun olmayan şəkildə tədrisi davam etdirmələri ilə nəticələnə bilər. Bu, həm müəllimlər, həm də öyrənənlər üçün vaxt və səy itkisinə səbəb ola bilər (Stiggins, 2005). İrəliləyişlərindən və ya inkişaf etdirilməsi lazım olan sahələrdən xəbəri olmayan şagirdlər zamanla həvəsdən düşə və motivasiyalarını itirə bilərlər. Bu, nailiyyətlərin aşağı səviyyəsinə və öyrənməyə mənfi münasibətə səbəb ola bilər (Butler, 1998). Formativ qiymətləndirmə şagirdlərə özünüqiymətləndirmə bacarıqlarını inkişaf etdirməyə və öyrənmələrinə sahib çıxmağa, müstəqil öyrənənlərə çevrilmələrinə kömək edə bilər. Bu imkan olmadan onlar öz güclü və zəif tərəflərini müəyyən edə və ya effektiv öyrənmə strategiyaları hazırlaya bilməzlər (Brookhart, 2017 b).

Beləliklə, formativ qiymətləndirmə effektiv tədris və öyrənmənin mühüm komponentidir. Şagirdlərin tərəqqisi haqqında dəyərli məlumat verməklə, müəllimlərə öz öyrətmə strategiyaları ilə bağlı əsaslandırılmış qərarlar qəbul etməyə, şagird motivasiyasını yaxşılaşdırmağa və öyrənmə mədəniyyətini inkişaf etdirməyə kömək edə bilər.

**Layihənin məqsədi və tədqiqat sualı**

Layihənin məqsədi formativ qiymətləndirmə ilə bağlı Biologiya müəllimlərinin bilik və səriştələrini artırmaq, tədris prosesində formativ qiymətləndirmə praktikasını genişləndirməkdir. Layihə aşağıdakı sualları cavablandırmağa çalışmışdır:

- Biologiya müəllimlərinin formativ qiymətləndirilmə ilə bağlı bilik, səriştə və təcrübələri nələrdir?
- Müəllimlərin formativ qiymətləndirmənin tətbiqi zamanı rastlaşdıqları problemlər və bu problemlərin mümkün həll yolları nələrdir?

**Layihənin aktuallığı**

Formativ qiymətləndirmə tədris prosesində həm müəllimlər, həm də öyrənənlər üçün böyük əhəmiyyət kəsb edir. Bu qiymətləndirmə sayəsində müəllimlər şagirdlərin öyrənmə ilə bağlı çətinliklərini dəqiq və vaxtında müəyyənləşdirir, nəticədə vaxtında müdaxilə və dəstək təmin edirlər (Black və William, 1998). Şagirdlər qiymətləndirmə prosesində fəal iştirak etdikdə və mütəmadi rəy aldıqda, onlar daha çox öyrənməyə həvəslənir və daha çox öyrənmə baş verir (Hettie və Timperley, 2007). Qiymətləndirmə prosesində fəal iştirak edən şagirdlər, öyrənmələrinə daha çox sahib olur və öz irəliləyişləri üçün daha məsuliyyətli olurlar

(Brookhart, 2017a). Johnson və Johnson (2009) iddia edirlər ki, formativ qiymətləndirmələr anlayışları anlamaq və problemləri həll etmək üçün şagirdləri əməkdaşlığa təşviq edir. O cümlədən, formativ qiymətləndirmələr şagirdləri öz öyrənmələri haqqında düşünməyə, güclü və zəif tərəflərini müəyyən etməyə və təkmilləşdirmə strategiyaları hazırlamağa təşviq edir (Brookhart, 2017b). Şagirdlərlə bərabər müəllimlər də formativ qiymətləndirmənin hesabına bir çox üstünlüklər əldə edir. Müntəzəm rəy müəllimlərə öz tədris strategiyalarını təkmilləşdirməyə və şagirdlərə daha effektiv dəstək verməyə kömək edir (Supe, 2008). Beləliklə, müəllimlər öz tədrislərində daha effektiv və səmərəli ola bilərlər (Stiggins, 2005).

Müəllimlərin formativ qiymətləndirmə fəaliyyətləri onların və həmçinin şagirdlərinin uğurlarına güclü təsir etsə də, formativ qiymətləndirməni həyata keçirmək kifayət qədər mürəkkəb iş olub, hərtərəfli peşəkar inkişaf tələb edən bir prosesdir (Black və Wiliam, 1998). Wylie və Lyon (2015) da formativ qiymətləndirmə strategiyalarını effektiv şəkildə həyata keçirmək üçün müəllimlərə peşəkar dəstəyin vacib olduğunu qeyd edirlər. Digər müəlliflər də bu fikirlə razılaşaraq, müəllimlərin peşə fəaliyyətindən öncə və peşə fəaliyyəti dövründə formativ qiymətləndirmə ilə bağlı peşəkar təlim və inkişaf proqramlarına cəlb olunmasını vacib hesab edirlər (DeLuca və b., 2019; Hamodi və b., 2017). Bunun üçün müxtəlif istiqamətli fəaliyyətlər (təlimlər, seminarlar, resurslar və s.) şəklində peşəkar inkişaf proqramları təşkil oluna bilər. Bu cür fəaliyyətlərin planlaşdırılması üçün isə ilk olaraq bu sahədə aparılmış elmi araşdırmalara ehtiyac var. Hal-hazırda Azərbaycanda formativ qiymətləndirmənin konseptual təsviri (Qasımova, 2021), təşkili qaydaları (Veysova və Məcidova, 2010) və qiymətləndirmə vasitələrinin hazırlanması (Quliyeva, 2022) ilə bağlı tədqiqatlar mövcud olsa da, müəllimlərin ümumtəhsil məktəblərində formativ qiymətləndirmə ilə bağlı təcrübələri, rastlaşdıqları problemlər, onların səbəbləri və həlli yolları ilə bağlı tədqiqatlar ədəbiyyat araşdırması zamanı aşkar olunmamışdır. Bunları nəzərə alaraq, cari layihə tədqiqatının həmin boşluğu doldurması və bu istiqamətdə aparılacaq tədqiqatlara yol açması gözlənilir. Bu da tədqiqatın aktuallığıdır.

**Layihənin məhdudiyyətləri**

Fəaliyyət tədqiqatı Bakı məktəblərinin biologiya müəllimləri ilə məhdudlanır. Eyni zamanda layihə zamanı müsahibədə cəmi 8 müəllim iştirak etmişdir. Tədqiqat yalnız 2024-2025-ci tədris ilini əhatə etmişdir.

# II FƏSİL

## Ədəbiyyat icmalı

### 1. Formativ qiymətləndirmə nədir?

Summativ və formativ qiymətləndirmə arasındakı fərq ilk dəfə proqram qiymətləndirmə kontekstində Scriven (1967) tərəfindən izah edilmişdir. Scrivenə (1967) görə summativ qiymətləndirmənin məqsədi təhsil proqramının ümumi dəyəri haqqında mühakimə yürütməkdirsə, formativ qiymətləndirmə proqramın təkmilləşdirilməsinə xidmət edir. Bloom (1969) eyni terminologiyadan istifadə edərək, summativ və formativ qiymətləndirməni oxşar məntiqlə izah etməyə çalışdı. Bloom üçün (1969) formativ qiymətləndirmənin məqsədi rəy vermək və tədris-təlim prosesinin hər mərhələsində düzəlişlər etməkdir. Hal-hazırda "formativ qiymətləndirmə" termini proqramlar əvəzinə şagirdlərin qiymətləndirilməsi üçün istifadə edilir (Bennett, 2011).